# MƏDƏNİYYƏT ETALONLARI TƏDQİQATIN EPİSENTRİNDƏ



*Əkbər ƏLİOĞLU,*
*filologiya üzrə fəlsəfə doktoru*

*(Əvvəli ötən saylarımızda)*

Rahid Ulusel Anar haqqındakı düşüncələrini R.Rza haqqındakı tədqiqatlara uyar olaraq «Özül daşı, yaxud Tarix - Allahın səbridir», «Mənəviyyatın əks dərinliklərində: Okeanında və Kosmosunda», «Dünənsiz yaşamağın faciəsi», «Qırıq xətli telefonların əlaqəsi», «Yaradıcılıq polifoniyası: nəsrdən sənət dürlərinə», «Həmişəki tətikdə, yaxud Zamanla nəfəs-nəfəsə» başlıqlarla öz cazibəsində saxlayır. Bu cazibədən çıxmaq çətindir; birincisi, onun Anarın roman və povestlərinin təhlilindəki dərinlik və çəkərlik, ikincisi isə həm Rəsul Rza, həm də Anarla bağlı mətn başlıqlarıyla bağlıdır. Başlıqların elmi-fəlsəfi və poetik məna özəllikləri bədii-estetik priniplərlə idarə olunaraq mətn məzmunlarının gerçəkliyinə, aparılan təhlillərin çəkisinə rəngarənglik bəxş etməklə bizləri gözəllik kanonlarıyla silahlandırır. Bəli, həqiqətən, zaman hörgüsü Anar ömrünün ləyaqət, əməl ölçüsüdür. Və bu ölçünün aparıcı komponentləri mətrdə özəlliklə oturaqlaşıb, yaxud «Özül daşı, yaxud Tarix-Allahın səbridir» kontekstində «Dədə Qorqud dünyası» və «Anar fenomenliyinin şərhindəki vəhdət·fəlsəfəsinin açımı... Anar yazır: «Kitabi Dədə Qorqud» tariximizin təməl məsələsi - Azərbaycan xalqının mənşəyi və məskəni məsələsiylə birbaşa bağlıdır. Daha doğrusu, bu məsələlərin tam dəqiqliklə açılması üçün ən etibarlı mənbə və məxəzdir». Bu mənbəyin, məxəzin araşdırılması tükənməzlik tanımır. Hələ nə qədər tədqiqat əsərləri yazılacaq. "Dədə Qorqud" dərgiləri illəri arxada qoyacaq. Əminik ki, Anar, bu düşüncəmizə inamlılığımıza yüzə-yüz şərikdir. Əslidə, təhlilçinin də Anarın Dədə Qorqud dünyasına münasibəti bu dəyərlə səsləşir. Başlığın mətnin ifadə etdiyi ideala söykəkliyini araşdırıcı bir daha Anarın özünə müraciətlə sərgiləyir: "Azərbaycançılıq haqqında düşüncələri"ndə (Bakıda Amerika Universitetində oxunmuş məruzə) Anar bir mütəfəkkir bir sənətkar olaraq Azərbaycanın tarixi taleyinə və Yeni Çağ Azərbaycançılığın fəlsəfi-ideoloji mahiyyətinə konseptual baxışlarını irəli sürmüşdür. Çağdaşlanan tarixin, tarixləşən çağdaşlığın yazarı Anar müəyyən mənada "Tarixi - Allahın səbri" sayır bir əsərində. O, tarixə ənənəvi-standart baxışlardan yan keçərək, dövrlər kataloqu zaman ardıcıllığı məntiqinə sığmayan olumlar düzümündə substansial gerçəkliyin mahiyyətini arayır, göstərir ki, tarix - yuvarlaq rəqəmlərlə tamamlanmır, epoxial hadisələrin bir-birinə təkanvericiliyi, şəbəkələnməsi, harmoniya qatlarını yaratması onun məntiqini şərtləndirir".

Bu təhlilin arxasında ağsaçlı Dədə Qorqud qiyaslı Anarı, həmçinin filosof tarixçi, filosof ictimai elmlər bilicisi,-filosof yazıçı, filosof milli bütövlük aşiqi və s. kimi görmək mümkündür. Məlum başlıq altında sərgilənən təhlilçinin düşüncələri dəyərli fikirlə sonuçlanıb. " Yazıçı Anarın yaradıcılığı sanki bu hikmətli fikri bir daha təsdiq edir: "Öz nöqsanlarını duyan, görən, düşünən (həm də düşündürən - Ə.Ə), yazan xalq yetkin xalqdır!". "Aşağılıq kompleksi"ndən sıyrılıb öz üstünlüklərini pasdan təmizləyib, bütövləyib, itiləyib, parıldadıb kəsəri, etgili, gərəkli edən xalq da eləcə". Müəllif məhz bu xalq etalonunda Anarın canlı obrazını təqdim edib.

Anar yaradıcılığına bələd olan intellekt düşüncəli oxucular yaxşı bilirlər ki, onun bədii nəsri ilkinliyindən indiyədək zənginləşmədə, özəl keyfiyyətlər qazanmaqda olub. Bu nəsrin səciyyəvi əlamətlərini ilk öncə sıralayan Ulusel ədibin yaradıcılığındakı poetik təkamülün ritmlərini "sanki bir-birindən doğulan, fəqət ayrı-ayrı dünyalardan keçən əsərlərin ümumi arxitektonikasında aydınca bəlirləmək olur. Yazıçının daim gərilən üslubu, birərli-analitik təhkiyəsi, öz daxili enerjisinə güvəncli süjet-obrazyaratma çəmləri, yorulmaz ideya axtarışları onun nəsr poetikasının dinamikasını təmin edir". - fikrinin gerçək tutumunda görür. 60 -cılar nəslinin nəsrindəki lirik-psixoloji, lirik-dramatik, lirik romantizmin səciyyəvi əlamətləri barədə çox yazılıb, monoqrafiyalar nəşr olunub. Müəllif Anar nəsrindəki psixolojizmin koordinatlarını səciyyələndirərkən şüuraltı psixologiyanın Anar fərdiyyətini təqdir edərək qeyd edir ki, şüuraltı psixologiyanın içərilərinə varmada Anar əsrdaşları - "Frans Kafka, Jan Pol Sartr, Alber Kamyu, Con Faulz, Çingiz Aytmatovun nəsr poetikası ilə səsləşən, lakin tamamilə orijinal bir poetikanın yaradıcısı olur. Bu, büsbütün Azərbaycan psixologiyasının dərinliklərinin poetikasıdır". Bu fikir dolayısıyla Azərbaycan ədəbi-bədii fikrinin dünya ədəbi prosesi ilə həmahəngliyini və bu yöndə də Anar yaradıcılığının ölçü meyarını, başqa cür desək "qitələrarası okeanları kosmos ənginliklərindən ötərək fəth etməsinin daşıyıcı kimi səciyyələnir. Anar nəsrində hazır dəyərlər kompleksi yox, əksinə... təqdim etdiyi dünya öz dəyərlər kompleksini təbii şəkildə doğurur". Ümumi halda göstərilən cəhətlər yazıçının üç əsəri - "Ağ liman", "Beşmərtəbəli binanın altıncı mərtəbəsi" və "Ağ qoç, qara qoç"-əsasında sərgilənərək onların çoxcəhətli ideya-bədii məziyyətləri təhlilə cəlb olunmuşdur. Elə bu fonda da "Yaxşı padşahın nağılı" əsərinin simasında "totalitar rejimin hansı müdhiş absurda gətirib çıxara bilməsinin" qroteks yarlıqları konkret epizodlar əsasında açılıb göstərilir". Ədib bununla da nəinki qadağalar məmləkətinə ezop ironiyası bildirib, eyni zamanda " totalitar mənəviyyata, diktatura psixologiyasına" meydan oxumaqla, "ictimai-siyasi azadlığın mənəviyyat dayaqlarını" silkələyir. Bundan güclü ədəbiyyat nə ola bilər? - elə bil əsər 1970-ci ildə deyil, 2023-cü ilin aprel günlərində yazılıb.Əbədi və əzəli müasirlik elə budur. Üstəgəl poetik təfəkkürün üst və alt qatlarının, şüuraltı psixologizmin qalibiyyət çələngli təntənəsi. "Mənəviyyatın əks dərinliklərində..." Anarın ədəbi boyunu həmin təntənə ilə tənləşməsini bəyan edib. Özü də Anara yaraşan deyim ovqatında, üslub sorağında, fəlsəfi fikir ocağında.

"Dünənsiz yaşamağın faciəsi"-kökündən ayrılmış mənəviyyatsızlığın, milli-estetik dəyərlərə yabancı münasibətlərin dayaqsızlığı, özünüdərkin çürüməsi, mifik bir sonsuzluqla ilkinliyin yaddaşdan düşməsi. Bəs bunlardan yaxa qurtarmaq, yabancı, qurama təsəvvürlər zibilliyindən təmizlənmə, ilkinliyin kükrəyib üzə durması,budaqların kökə əyilməsi... Bunlar baş qaldıranda və rasional məntiqin sübutları mənəvi-əxlaqi oyanışın, özünə yenidən tapınmanın mənəviyyat hadisəsi kimi ucalığı intibah bayrağının dalğalanması deyilmi? Bu məsələlərin bədii yaddaşda ifadəsinə cavab verən "Macal" povesti haqqındakı düşüncələrinə belə bir giriş söhbəti ilə rəvac verən Rahid yazır: "Öncə qayıdışın mürəkkəb psixoloji şərait və münasibətlər zəminində təsvirini verən bu povestdə Anarın yazıçı sənətkarlığının ən etgili xassələri qabarıq görünür..." Bu müqəddimə başlanğıcdan sonra, əsərin geniş panoram təsvirini verir, obrazların iç dünyasının dartışmasını təhlil obyektinə cəlb edir, "içində boğulub qalmış imkana" dönük çıxan Fuadın mənəvi-psixoloji yaşantılarını təsvir edərək onu müəllimi haqqındakı insani düşüncəyə dönməsinə rəğmən dəyərləndirir, "ölüm - adamlarin əbədiyyətə bir növ bitkin, tamamlanmış şəkildə,.. qoyduğu irsin, adın müəyyənliyi baxımından nəticələyərək təqdim edir. Fuad haqqındasa ölümü ilə tamamlanmış, bitkin fərd kimi düşünmək mümkün deyil".

Məqalənin sonunda təhlilçi mənəvi-psixoloji özünəqayıdışın bəşəri əhəmiyyətinə belə nöqtə qoyur: "Bu itirəngli çevriliş - son çağın ağrılı Azərbaycan özünəqayıdışın da ifadə edir". Bəli, özünəqayıdışda təkamül var, sıçrayış var. Ötən əsrin 70-ci illərinin prozaikası indi də yad, Qərbin yabançı mənəvi dəyərlərini vicdanımızdan silib, süpürüb təmizləmək - Anarın bədii-estetik təfəkkürünün fəaliyyət arenası bax belə bir bəşəri missiyanın gerçəkləşməsinə xidmət edib və etməkdədir. Məqalədən doğan yekun nəticə bu missiyanı müasirlərimizə ünvanlamaqdan ibarətdir. Budur o, böyük ədibin "Əlaqə" povestinə təhlilində giriş söhbəti olaraq qeyd edir ki, insanlığın kosmik özünüdərki təkcə kosmik hadisələrin öyrənilməsi ilə deyil, eyni zamanda hərtərəfli insani münasibətlərin təşkilində də idraki-psixoloji mərhələ kimi öz gerçəkliyini təsdiq edə bilir: "Povestdə diqqəti, əsasən - fenomenal üçlük cəlb edir: Tənha yer kürəsi -tənha bina - tənha, fərdiyyətçi tələbə". Yenə də XX əsrin insanına geniş masştablı bəşəri münasibət. Bu münasibətlər deyilmi müasir dünyamızın seçilmiş yazıçıları arasında Anarın boy artımlığı. Bu, bizim üçün iftixar və şərəf etalonu deyilmi?! Müəllif bizi bu düşüncələr axarına salmaq üçün " Əlaqə"dən bir simvol kimi istifadə etmişdir. Və eyni zamanda povest haqqındakı fikilərinə beləcə sonuç vermişdir: Deməli, "Başqa növ əlaqə prinsiplərini" dərk etmədən, qarşılıqlı münasibətlərdə məqsədəuyğun əlaqə yollarını seçmədən yeni ictimai - bədii hadisələri rasional qarşılamadan, dialektikanı, yeniliyi, dəyişməni, inkişafı nəzəri fikirdən praktikaya keçirmədən, onu hətta gündəlik ünsiyyət və əlaqə vasitələrinin qavranılmasına tətbiq etmədən bəşəriyyətin həqiqi kosmik özünədərki də mümkün deyildir. Belə özünüdərketmənin reallaşması isə "bəşəri - universal harmoniyaya yiyələnmək, özünüyaratmanın yeni fazasına keçmək deməkdir". Elə buradaca bilirsiniz ağlıma nə gəldi; ustad Rəsul Rza və mütəfəkkir Anar bəşəriliyinin Nəsimi ucalığı, genişliyi və dərinliyi - "Mən bəşəriyyətə gərəyəm" titanik əzəməti.

Anarın yaradıcılıq polifoniyası çoxcəhətli olması, müxtəlif sənət sahələrini əhatə etməklə şərtlənir; pyes, teletamaşa, radiopyes, bədii, sənədli telе və cizgi filmləri, ssenariləri. esseləri, ədəbiyyat və sənət haqqında məqalələri və çıxışları, xatirələri...həmin polifonizmin ağırlığı və genişliyini bir insan ömrü necə çəkib?! - qibtə və heyrət doğurası hadisədir. Və əsas məsələ də ondadır ki, bu kəmiyyət çoxluğu onların siqlətinə, ideya-bədii gücünə qətiyyən kölgə sala bilmir. Onların hər biri ədəbi-mədəni hadisə kimi qəbul edilərək dəfələrlə dəyərləndirilib. "Nəsrdən sənət dürlərinə" keçid məqaləsində R.Ulusel ədibin əsasən dramaturgiya və kino ssenarilərinin yığcam təqdimatı və şərhinə toxunub. On bir bədii filmin ssenari və rejissor müəllifliyi, "Dəniz", "Qobustan", "Daş saatın səsi", "Qədim Gəncə - Yeni Gəncə", "Bu - Səttar Bəhlulzadədir", "Bu - Cavaddır", "Dindirir əsr bizi", " Evləri köndələn yar" kimi sənədli və televiziya filmlərinin ssenari müəllifliyi Anarın qismətinə yazılıb. Cəsarətlə demək olar ki, onun bədii filmlərinin hər biri ayrıca bir kitablıq təəssüratının məhsuludur. Təbii ki,Əlisəfdər Hüseynov və Rahid Ulusel bu dəyər ölçüsünü çox yaxşı dərk ediblər, amma ümumiləşdirmə və yığcamlaşdırma yönünü seçiblər: Onlar yaxşı bilirlər ki, həmin filmlərin ədəbi - bədii təsir gücünün kriteriyalarını, ideya - məzmun dəyərinin cari və əbədi dəyərinin nəyə qadirliyini çözələmək üçün incəsənətin, kino sənətinin nəzəri və praktik elementlərini mükəmməl öyrənmək zəruri tələbatdır, onların təhlili və şərhi xüsusi məktəb səviyyəli bilgi tələb edir. Bu məsələnin ümumi mahiyyətini yığcamlıqla sərgiləyəndən sonra belə bir yekun akkordunu vuran təhlilçi yazır: "Ümumiyyətlə, Anarın ayrı-ayrı seçkin şair, yazıçı, alim, bəstəkar, aktyor, rəssam, memar, ifaçı və başqa sənətçilərimiz haqqında, ədəbiyyat, tənqid, musiqi, teatr, kino və s. dürlü sənət sahələri xüsusunda yazdığı məqalə və esselərində, dünyadan köçmüş ədib və sənətçilərə həsr etdiyi ağılar və anılarda "Sizsiz" (Kamil bir romanın təsir gücünə bərabərdir - Ə.Ə), "Mübarizə bu gün də var", "Gecə düşüncələri", " Əsrim və nəslim" kimi dəyərli və orjinal janrlı əsərlərdə Yeni Çağ Azərbaycan mədəniyyəti və incəsənətinin palitrası yaradılır". Elm, incəsənət və ədəbiyyat yaradıcısı və hamısı + Anar şəxsiyyətinin bütöv mükəmməlliyi - Azərbaycan milli ictimai şüurunun manifest gerçəkliyi. Anar bu cür anılır, bu cür də zamanların məhək daşında əbədi abidə kimi görünəcəkdir . Rahid Uluselin qeyd etdiyi kimi o, bu gün də tətikdə, zamanla nəfəs - nəfəsədir. Anar tətikliyi, zamanla nəfəs-nəfəsliyi milli -mənəvi dəyərlər hüdudlarını aşaraq qloballaşan dünyaya həqiqət və ədalətdən yoğrulmuş nəğməsini - polifonik fenomenliyini, titanik sənətçilik üverturasını bəyan etməkdədir. Təhlilçiyə və bizə isə ona "can sağlığı, can sağlığı yenə də can sağlığı" diləmək düşür. Qismətimizə şükür, qismətinə şükür, Anar müəllim.

*28.04.2023*
*Göyçay*